# Bahar çiçəkləri





Foto-etüd Səhrab UMUYEVİNDİR.

## «Qəbələ»nin peşəkar boksda ilk qələbəsi

Azərbaycanı və «Qəbələ» boks klubunu peşəkar arenada təmsil edən Fariz Məmmədov 2013-cü ildə keçirdiyi ilk reytinq döyüşündə qələbə qazanıb. Həmyerlimiz Almaniyanın paytaxtı Berlin şəhərində baş tutan döyüşdə 36 yaşlı polşalı boksçu ilə üz-üzə gəlib. Gərgin keçən 6 raundluq döyüş idmançımızın xal üstünlüyu ilə yekunlaşıb. Bu, 8 illik fasilədən sonra yenidən idmana qayıdan Fariz Məmmədovun peşəkar rinqdə ikinci döyüşü olub. Belə ki, Fariz Məmmədov ötən ilin may ayında Almaniyada təşkil olunan döyüşdə Avstriya vətəndaşı olan erməni əsilli Tomazyanla qarşılaşmışdır. Həmin döyüşün 4-cü raundunda ermənini nokauta salan F. Məmmədov rinqdən qalib ayrılmışdır.



Bu il qazandığı uğurlu qələbədən sonra Fariz Məmmədov martın 28-də vətənə qayıdıb. Çoxsaylı idmansevərlər onu hava limanında gül-çiçəklə qarşılayıblar. O, bu qələbəni ötən ay dünyasını dəyişmiş yaxın dostu, «Qəbələ» Futbol klubunun əməkdaşı, keçmiş boksçu Mübariz Nəcəfovun əziz xatirəsinə həsr etdiyini bildirdi. Ruhu şad olsun.

Farizin arzusu gələcəkdə Avropa çempionu titulunu daşımaqdır. May ayına növbəti döyüşü planlaşdırılıb. Dekabr ayında isə ilk dəfə Azərbaycanın paytaxtı Bakı şəhərində Avropa kəməri uğrunda keçiriləcək döyüşdə iştirak edəcəkdir.

Azərbaycanın ilk peşəkar boksçusu Fariz Məmmədov hazırda «Qəbələ» idman klubunun boks bölməsinə başçılıq edir. Onun rəhbərliyi altında «Qələbə»»nin 3 boksçusu yanvar ayında böyüklər arasında keçirilən Azərbaycan çempionatında iştirak edi .Debüt yarışında klubun təmçilçisi Rüstəm Musayev üçüncü yerə çıxıb. «Qəbələ» boks klubunun 6 boksçusu isə gənclər arasında keçirilən Azərbaycan çempionatına qatılıb.

Fariz Məmmədova və onun yetirmələrinə yeni-yeni idman uğurları arzulayırıq.

**Şöhrət SÜLEYMANOV.**

### Futbol

## Vətənə gümüş medalla döndülər

«Qəbələ»nin 15 yaşaqədər futbolçularımızdan ibarət komandası Moldaviyanın Tiraspol şəhərində keçirilən beynəlxalq «Tiraspol Baharı—2013» turnirindən Vətənə gümüş medala qayıtmışlar. Onlar 5 görüşdən 4-də qalib gələrək bu qələbəyə imza atmış, turnirin ikinci kubokuna və gümüş medalına sahib olmuşlar.

Komandamız Ukrayna futbolçularına 2:1, Moldovaya 5:1, Ukraynanın digər bir klubuna yenə də 2:1 və ev sahibi «Şerif»ə 3:0 hesabı ilə qalib gələrək finala asanlıqla vəsiqə qazanmışdır.

Final mərhələsində Ukraynanın Uşaq Gənclər İdman Məktəbi komandası ilə üz-üzə gələn «Qəbələ» onbeşyaşlıları qızılı penallar mərhələsində əldən vermişlər. Belə ki, qolsuz bərabərliklə keçən oyunda son nəticədə bəxt rəqib komandanın üzünə gülmüşdü. Ukraynalılar qızıla, «Qəbələ» isə gümüşə layiq görülmüşdü. Əslində, komandamız üçün bu da pis nəticə deyil...

**«Qəbələ».**

## «Qəbələ»də yenə də xal itkisi

Premyer Liqada futbol üzrə Azərbaycan çempionatının XXVI turu keçirilmişdir. Doğma meydanda «Bakı»nı qəbul edən «Qəbələ»ni rəqibindən cəmi xal ayırırdı. Oyunu udacağı təqdirdə komandamız «Bakı»nı üstələyəcək yarış cədvəlinin 5-ci pilləsinə qalxacaq və yerini xeyli möhkəmləndirəcəkdi. Odur ki, azarkeşlər doğma komandalarından qələbə gözləyirdilər.

Oyunun 30-cu dəqiqəsində 9 nömrəli hücumçumuz Viktor Mendi başla vurduğu gözəl zərbə ilə hesabı açdı. Bu hesab oyunun 90-cı dəqiqəsinədək davam etdi. Artırılmış dəqiqədə qonaqların hücumçusu Rauf Əliyev cavab topu ilə hesabı bərabərləşdirdi.

Turun digər oyunları isə belə nəticələnmişdi: «Qarabağ»—«İnter»—3:2, «Simurq»—«Neftçi»—0:1, «Turan»—«Xəzər Lənkəran»—2:2, «Sumqayıt»—AZAL-0:2.

**M. RƏHİMOV.**

## Meyvələrin insan orqanizminə verdiyi kalori

*Qurudulmuş meyvələr (100 qramla)*

Qoz—663 kalori.
Fındıq—646 kalori.
Badam—598 kalori.
Xurma—274 kalori.
Əncir—274 kalori.
Ərik—268 kalori.

## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 fevral 1999-cu il tarixli 04 saylı qərarla Nic kənd (qəsəbə) sakini Qəribov Şərif İslam oğlunun və ailə üzvlərinin adına verilmiş JN 166 №-li (kod 40600068) Torpağın mülkiyyət hüququna dair Dövlət aktı **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 29 noyabr 1977-ci il tarixli 26 saylı qərarla Zarağan kənd sakini Məsimov Şahin Daşdəmir oğlunun və ailə üzvlərinin adına verilmiş JN-397G №-li (kod 40608018) Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

---

Türkiyə Cümhuriyyəti vətəndaşı Ozan Özcana verilmiş seriya №-si 0110671 olan müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi **itdiyi üçün** etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

10 saylı Ərazi Vergilər İdarəsinin kollektivi idarənin rəis müavini **Elbrus Abdullayevə**, əzizi

**FAZİL KİŞİNİN**

vəfatından kədələndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**
*Məsul növbətçi*
*M. Ə. Rəhimov.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: 5 - 15 - 56.**
**e-mail: gabalanews@mail.ru**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.**
**"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149**
**VÖEN: 4400103601**
**Lisenziya AV № 022611**

**Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.**
**Tiraj 2300.**